# FİLOLOGİYA FAKÜLTƏSİ

## 2022-ci il üzrə
## HESABAT

**FAKÜLTƏNİN TARİXİ**

**TƏDRİS PROSESİ**

**ELMİ TƏDQİQATLAR**

**SOSİAL FƏALİYYƏT**

**ÖLKƏDAXİLİ ƏLAQƏLƏR**

**BEYNƏLXALQ ƏLAQƏLƏR**

# Fakültənin tarixi

- Filologiya fakültəsi BDU 1919-cu ildə təsis edilərkən yaradılan ilk iki fakültədən biridir.
- Fakültə yaradılarkən tərkibində Dil-ədəbiyyat və Şərq şöbələri mövcud olmuşdur.
- 1920-ci illərin əvvəllərində fakültədə tədris ilə 10 kafedra məşğul olmuşdur.
- Azərbaycan filologiyasının formalaşması və inkişafında BDU-nun Filologiya fakültəsinin professor-müəllim heyətinin əvəzsiz xidmətləri olmuşdur. Müxtəlif dövrlərdə ayrı-ayrı alimlərin (Bəkir Çobanzadə, Məmmədağa Şirəliyev, Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Mir Cəlal Paşayev, Feyzulla Qasımzadə, Əli Sultanlı, Muxtar Hüseynzadə, Cəfər Xəndan Hacıyev, Məmmədhüseyn Təhmasib, Hadi Mirzəzadə, Abbas Zamanov, Bəxtiyar Vahabzadə, Əlövsət Abdullayev, Səlim Cəfərov, Fərhad Zeynalov, Məmməd Tağıyev, Əkbər Ağayev, Abdulla Vəliyev, Firudin Cəlal oğlu Hüseynov, Əliyar Səfərli, Musa Adilov, Firudin Hüseyn oğlu Hüseynov, Şamil Qurbanov, Samət Əlizadə və b.) ardıcıl fəaliyyətinin nəticəsi kimi, həm dilçilik, həm də ədəbiyyatşünaslıq istiqamətlərində bir neçə elmi-pedaqoji məktəb formalaşmış, həmin məktəblər respublikada filoloji fikrin inkişafında mühüm rol oynamışlar.

# Fakültənin strukturu

Fakültədə dekanlıq, 15 kafedra, 4 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir.

## Dekanlıq

**Dekan**

**3 dekan müavini**

**5 tyutor**

**1 kargüzar**

# Kafedralar və laboratoriyalar

| Kafedralar | Elmi-tədqiqat laboratoriyaları |
|---|---|
| 1.Azərbaycan ədəbiyyatı tarixi | 1.«Dədə Qorqud» ETL-i |
| | 2.Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə ETL-i |
| 2.Azərbaycan dilçiliyi | 3.Azərbaycan dilinin tətbiqi məsələləri ETL-i |
| 3.Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası | |
| 4.Azərbaycan şifahi xalq ədəbiyyatı | |
| 5.Ümumi dilçilik | |
| 6.Türkologiya | 4.Türkoloji araşdırmalar ETL-i |
| 7.Dünya ədəbiyyatı | |
| 8.Rus ədəbiyyatı tarixi | |
| 9.Rus dilçiliyi | |
| 10.Rus dili (humanitar fakültələr üzrə) | |
| 11.Rus dili (təbiət fakültələri üzrə) | |
| 12.Alman və fransız dilləri | |
| 13.İngilis dili (humanitar fakültələr üzrə) | |
| 14.İngilis dili (təbiət fakültələri üzrə) | |
| 15.Azərbaycan dili və nitq mədəniyyəti | |

# İxtisaslar və istiqamətlər

- **Bakalavriat (əyani) – 3** ixtisas üzrə tədris həyata keçirilir:
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi;
- Dil və ədəbiyyat müəllimliyi (Rus dili və ədəbiyyatı müəllimliyi);
- Filologiya:
  - Filologiya (Azərbaycan dili və ədəbiyyatı;
  - Filologiya (rus dili və ədəbiyyatı);
  - Filologiya (alman dili və ədəbiyyatı);
  - Filologiya (fransız dili və ədəbiyyatı)
  - Filologiya (ingilis dili və ədəbiyyatı).
- **Bakalavriat (qiyabi)**:
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı);
- Filologiya (rus dili və ədəbiyyatı).
- **Yenidənhazırlanma** – Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- **Magistratura** –**2** ixtisas, **14** ixtisaslaşma.

**İxtisaslar:** Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Filologiya.

**İxtisaslaşmalar:** Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası, Azərbaycan ədəbiyyatı, Ədəbiyyatşünaslıq (dünya ədəbiyyatı), Ədəbiyyatşünaslıq (türk xalqları ədəbiyyatı), Ədəbiyyatşünaslıq (ədəbiyyat nəzəriyyəsi), Ədəbiyyatşünaslıq (folklorşünaslıq və mifologiya), Ədəbiyyatşünaslıq (ədəbi tənqidin nəzəriyyəsi və tarixi), Ədəbiyyatşünaslıq (rus ədəbiyyatı), Azərbaycan dili, Dilşünaslıq (türkologiya), Dilşünaslıq (ümumi dilçilik), Dilşünaslıq (alman dili üzrə), Dilşünaslıq (fransız dili üzrə), Dilşünaslıq (rus dili üzrə).

- **Doktorantura və dissertantura – 10 ixtisas:** Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Türk [redacted]at nəzəriyyəsi, ədəbi tənqid və təhlil, Dil nəzəriyyəsi, Dünya [redacted] müqayisəli-tipoloji dilçilik, Türk xalqları ədəbiyyatı, Slavyan dilləri.

[redacted]







[redacted]

# ETL əməkdaşları (cəmi: 39 nəfər)






# Faküİtə əməkdaşlarının yaşa və cinsə görə nisbəti (cəmi: 302 nəfər)




## Cinsə görə



# Təhsilalanlar haqqında məlumat

| Kurs | Bakalvriat (əyani) | Bakalvriat (qiyabi) | Yenidən-hazırlanma | Magistratura | Doktorantura/ dissertantura | |
|---|---|---|---|---|---|---|
| | | | | | Fəlsəfə doktoru | Elmlər doktoru |
| I | 306 | 23 | | 46 | 11 | 6 |
| II | 297 | 25 | | 36 | 13 | 9 |
| III | 289 | 26 | | | 26 | 2 |
| IV | 244 | 34 | | | 16 | 1 |
| V | | 22 | | | - | 1 |
| **Cəmi:** | **1136** | **130** | **40** | **82** | **66** | **19** |

**Cəmi: 1473 nəfər**

[redacted]

| Kafedralar | Dərs yükü | Ştatda olan əməkdaşlar | Saathesabı qaydada tədrisə cəlb olunan müəllimlər |
|---|---|---|---|
| 1.Azərbaycan ədəbiyyatı tarixi | 8 799 | 19 | 1 |
| 2.Azərbaycan dilçiliyi | 5 515 | 16 | - |
| 3.Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası | 7 872 | 14 | 1 |
| 4.Azərbaycan şifahi xalq ədəbiyyatı | 3 207 | 7 | - |
| 5.Ümumi dilçilik | 4 596 | 11 | 3 |
| 6.Türkologiya | 7 374 | 17 | - |
| 7.Rus ədəbiyyatı tarixi | 2 743 | 9 | 1 |
| 8.Rus dilçiliyi | 4 910 | 8 | 2 |
| 9.Dünya ədəbiyyatı | 6 083 | 7 | 7 |
| 10.Rus dili (humanitar fakültələr üzrə) | 7 682 | 18 | - |
| 11.Rus dili (təbiət fakültələri üzrə) | 4 660 | 9 | 2 |
| 12.Alman və fransız dilləri | 7 616 | 17 | 1 |
| 13.İngilis dili (humanitar fakültələr üzrə) | 2 7422 | 36 | 40 |
| 14.İngilis dili (təbiət  fakültələri üzrə) | 23 538 | 38 | 26 |
| 15.Azərbaycan dili və nitq mədəniyyəti | 7 625 | 19 | - |
| **Cəmi:** | **129 642** | | **84** |

# Tələbələrin təhsil göstəriciləri

## Bakalavriat səviyyəsi üzrə

| İllər | Müvəffəqiyyət göstəricisi (müsbət qiymət alanlar) % | Keyfiyyət göstəricisi (əla, əla və yaxşı qiymət alanlar) % |
|---|---|---|
| 2019/2020, yaz | 96 | 81 |
| 2020/2021, payız | 99 | 75 |

## Magistratura səviyyəsi üzrə

| İllər | Müvəffəqiyyət göstəricisi (müsbət qiymət alanlar) % | Keyfiyyət göstəricisi (əla, əla və yaxşı qiymət alanlar) % |
|---|---|---|
| 2019/2020, yaz | **100** | **100** |
| 2020/2021, payız | **99** | **96** |

# Elmi tədqiqatlar (2020)

- 2020-ci il ərzində fakültədə 1 Respublika elmi konfransı, 14 elmi, elmi-pedaqoji, elmi-praktik seminar keçirilmişdir.
- Hesabat ilində fakültənin nəzdində olan **«Dil və ədəbiyyat»** və **«Folklorşünaslıq»** beynəlxalq elmi-nəzəri jurnalların hər birinin **2** sayı çap edilmişdir.

| **Filologiya fakültəsi** | **Mono-qrafiya** | **Dərslik** | | **Dərs vəsaiti və kitab** | **Tər-cümə** | **Proq-ram** | **Kitaba redak-torluq** | **Kitaba ön söz** | **Kitaba rəy** | **Məqalə** | | | | | **Konfransda iştirak** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | **Xaricdə** | | | | **Respub-likada** | **Beynəl-xalq** | **Respub-lika** |
| | | **ali** | **or-ta** | | | | | | | **A** | **B** | **C** | **D** | | | |
| **Kafedralar** | 3 | 13 | 5 | 22 | 3 | 3 | 40 | 8 | 19 | 6 | - | 1 | 45 | 241 | 22 | 68 |
| **ETL-lər** | - | - | - | 8 | - | 1 | 9 | 1 | - | - | - | - | 6 | 36 | 3 | 12 |
| **Cəmi** | 3 | 13 | 5 | 30 | 3 | 4 | 49 | 9 | 19 | | | | 51 | 277 | 25 | 43 |
| | | | | | | | | | | 58 | | | | | 68 | |

[redacted]

- TEC hesabat ilində **“Elmi işlərin yazılma qaydaları”, “Mütaliə vərdişlərinə necə yiyələnmək olar?”, “Azərbaycan Xalq Cümhuriyyəti dövründə dil və tədris məsələləri”** adlı elmi seminarlar keçirmişdir.
- Hesabat ilində fakültə tələbələrindən **46** nəfərinin məqaləsi yerli, **5** nəfərin məqaləsi xaricdə çap olunmuşdur.
- Əsas təşəbbüskarı fakültə TEC-i olan 4-5 sentyabr 2020-ci il tarixlərində **I Beynəlxalq Türkbilim Tələbə Qurultayı** keçirilib. Qurultayın plenar iclasında **Beynəlxalq Türk Akademiyasının Prezidenti, professor Darxan Xıdırəli**, bir çox təşkilat rəhbərləri, tanınmış elm xadimləri çıxış edib.
- TEC-in tərkibində fəaliyyət göstərən **«Türkoloji»** dərnək hesabat ilində **“Azsaylı Duxa türkləri”, “Qaqauzlar – keçmişdən bu günə”, “Sibirdə yaşayan türk xalqları, “Türklərin qədim dini və mədəniyyəti - Şamanizm”, “Türklər üçün ortaq ünsiyyət dili”, “Balkanlarda türk ədəbiyyatı”** adlı elmi seminarlar keçirmiş, həmin seminarlara türkdilli ölkələrdən alimlər, dünyanın müxtəlif ölkələrində yaşayan türkoloqlar qatılmış və elmi məruzələr etmişlər.

# Sosial fəaliyyət

- Tələbələrin sosial aktivliyini artırmaq məqsədi ilə fakültəmizdə THİK, TGT, **“Söz”** Yaradıcılıq Birliyi, **“Kitab”** klubu**, “Folklor”** dərnəyi, **“Ədəbiyyat”** klubu, **“Türkoloji dərnək**”, **“Art”** klub**, “Musiqi”** klubu**, “Şəxsi inkişaf”** klubu, **“İdeya”** klubu fəaliyyət göstərir.
- Mühum tarixi günlərlə bağlı **12,** yubileylərlə bağlı **3** tədbir keçirilib.
- Tələbələrin sosial aktivliyini artırmaq üçün pandemiya dövründə **4** layihə **(36 təqdimat)** həyata keçirilib. Tələbələrimiz respublika üzrə təşkil olunan bir neçə layihəyə də qoşulmuşdur.
- 2020-ci il ərzində **“Tələbələrimiz yazır” (14 yazı), “Türk dünyasına açılan yelkən” ( 4 tədbir)** layihələri də həyata keçirilib.
- **2** intellektual oyun, **5** müzakirə, **4** təlim təşkil olunmuşdur.
- Tələbələrimiz respublika səviyyəsində təşkil olunan bir neçə müsabiqəyə (qiraət, esse) qoşulmuş və mükafatlar qazanmışlar.
- 10 nəfər tələbəmiz AMEA-nın Mərkəzi Elmi Kitabxanasının təşkil etdiyi “Vikipediya” Metodik Mərkəzinin təlimlərində fəal iştirak edib və mükafata layiq görülüblər.
- **Vətən müharibəsi dövründə görülən işlər:**

a) Fakültə əməkdaşları orduya yardım aksiyasına qoşulmuş və buna görə 50 min AZN-dən çox vəsait Silahlı Qüvvələrə Yardım Fonduna köçürülmüşdür.

b) Tələbələr arasında **«II Qarabağ müharibəsi: tarix yazan qəhrəmanlar»** adlı esse müsabiqəsi keçirilmiş və esselər elektron kitab şəklində fakültə saytında yerləşdirilmişdir.

c) [redacted]kültəmizin 160-dan çox tələbəsi aktiv şəkildə iştirak etmiş və onları [redacted]əqsədilə whatsapp qrupları yaradılmışdır.

# Fakültənin ölkədaxili əməkdaşlıq əlaqələri

**Hesabat ili ərzində:**

- Fakültə ölkə daxilində AAK, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu, Nizami adına Ədəbiyyat İnstitutu, Füzuli adına Əlyazmalar İnstitutu, Folklor İnstitutu, MTRŞ, Azərbaycan Yazıçılar Birliyi və respublikanın digər elm və təhsil müəssisələri ilə sıx əlaqələrini davam etdirmişdir.
- Fakültənin əməkdaşları AMEA-nın və müvafiq ixtisaslı ali məktəblərin tədbirlərində, konfrans və seminarlarında fəal iştirak etmişlər.
- AMEA və respublikanın ali təhsil müəssisələri ilə dərsliklərə, dərs vəsaitlərinə rəy verilməsi sahəsində sıx əməkdaşlıq edilmişdir.

# Beynəlxalq əməkdaşlıq

**2020-ci ildə Fakültənin kafedraları ixtisas yönümünə uyğun olaraq, xarici həmkarları ilə sıx əməkdaşlığı davam etdirmişlər:**

- Fakültə əməkdaşları hesabat ilində Türkiyədə, MDB ölkələrində, Avropada təşkil olunmuş müxtəlif elmi konfranslarda iştirak etmişlər.
- Türkiyənin Bilkent Universitetində hər il təşkil olunan «Türkce öğretimi» yay məktəbində əməkdaşlar və tələbələrimiz iştirak edir. Bu istiqamətdə hazırlıq işləri aparılsa da, ötən il pandemiya səbəbindən kurs baş tutmamışdır.
- Fakültə TEC-inin tərkibində fəaliyyət göstərən "Türkoloji dərnək" ötən bir il ərzində bir neçə dəfə türk dillərinin öyrənilməsi vəziyyəti ilə bağlı seminarlar, beynəlxalq konfranslar keçirmişdir.
- Rusiyanın Kazan Universiteti, Türkiyənin Qafqaz Universiteti ilə əməkdaşlıq davam etdirilmişdir.
- Türkiyənin Fırat Universitetinin müəllimi dos.dr. Süleyman Kaan Yalçın Filologiya fakültəsində onlayn mühazirə aparmışdır.
- Fakültənin İngilis dili (humanitar fakültələr üzrə) kafedrası ABŞ-ın Minnesota Universitetinin İngilis Dili Departamenti və Almaniyanın Saarlənd Universitetinin İngilis Dili Departamenti ilə, Rus dilçiliyi kafedrası Sankt-Peterburq Universitetinin B.A.Larin adına dialektoloji kabineti, Sankt-Peterburq Universitetinin Slavyan [redacted]olqoqrad Dövlət Pedaqoji Universitetinin Ümumi və Sla[redacted] ilə əməkdaşlıq etmişlər.

# Elmi uğurlar və təltiflər

- Hesabat ilində Filologiya fakültəsinin iki əməkdaşı dövlət mükafatına layiq görülmüşdür:
  - Rus dilçiliyi kafedrasının baş müəllimi Nazim Vəli oğlu Xidirov Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2020-ci il tarixli Sərəncamı ilə **“Tərəqqi”** medalı ilə;
  - Alman-fransız dilləri kafedrasının müəllimi İradə Azər qızı Əmiraslanova Azərbaycan Respublikasının Prezidentinin 31 dekabr 2020-ci il tarixli Sərəncamı ilə **“Tərəqqi”** medalı ilə təltif edilmişlər.
- 2020-ci ildə fakültədə əvvəlki illərdə müdafiə etmiş doktorant və dissertantlardan **4-**nun fəlsəfə doktoru, **1-**nin elmlər doktoru elmi dərəcəsi AAK tərəfindən təsdiqlənmişdir.
- Bakı Dövlət Universitetinin Elm Gününə həsr olunmuş “İlin alimi” müsabiqəsinində Türkologiya kafedrasının dosenti **Qızılgül Abdullayeva 3-cü** yerə layiq görülmüşdür.
- Bakı Dövlət Universitetində 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş “İlin gənc alimi” müsabiqəsində Türkoloji araşdırmalar ETL-inin kiçik elmi işçisi **Pərvin Eyvazov 2-ci** yerə layiq görülmüşdür.
- Dünya ədəbiyyatı kafedrasının professoru, f.e.d. Cəlil Qərib oğlu Nağıyevin “Dədə Qorqud, Koroğlu və s...” adlı kitabının (Bakı, “Elm və təhsil”, 2020. 348 səh. (22 ç.v.)) [redacted]**icələri** siyahısına salınması təklif olunmuşdur.

**DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRƏM!**